**Şəhidlərimiz öz qanları ilə adlarını Vətən torpağına yazdılar. Onlar talelərini ailələrinə yox, əbədi olaraq Vətənə, torpağa bağladılar, əbədiyyən şəhid olduqları torpaqlarda qaldı izləri...**

# "Övladlarımızın xatirəsini bu gün özümüz yaşadırıq, sabah "Xatirə kitabı " yaşadacaq- kövrək anlar yaşandı...

*Nəzakət Məmmədova: "...Qarşımızda duran əsas vəzifələrdən biri Respublika Xatirə Kitabı Redaksiyasının gələcəkdə görüləcək işlərə daha məsuliyyətlə yanaşmasıdır"*








Ağlama daha ana,
Canın köçüb canıma.
Mən uzaqda deyiləm
Vətən hopub qanıma...

Qanı Vətən torpağına hopan, ruhu Vətən havasına, Vətən suyuna, Vətən daşına köçən şəhid oğulların adlarının əbədiləşdirilməsi kimi məsuliyyətli missiya Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyasının taleyinə düşüb.

Nəzakət Məmmədovanın rəhbərlik etdiyi Respublika Xatirə Kitabı Redaksiyası torpaqlarımızın azadlığı və ərazi bütövlüyü uğrunda canını fəda edən oğullarımızın xatirəsinə həsr olunan "44 gün - Tarixi zəfər" adlı çoxcildliyi ərsəyə gətirərək şəhid ailələrinə təqdim edir.

Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyası növbəti təqdimatı Azərbaycan Milli Kitabxanasında keçirdi. Bakı şəhərinin Nəsimi, Nizami, Xətai, Suraxanı, Sabunçu, Binəqədi, Xəzər, Pirallahı, Qaradağ, Səbail və Nərimanov rayonları üzrə "44 gün - Tarixi zəfər" adlı çoxcildliyin IV cildinin təqdimatını keçirdi. Bu cilddə Vətən uğrunda şəhid olmuş şəxslər haqqında əlifba sırası ilə ensiklopedik məlumatlar yer alıb, onların adları və xatirələri əbədiləşdirilib.

Tədbirdə şəhid ailələrinin üzvləri, Mədəniyyət Nazirliyinin şöbə müdiri Vasif Qurbanzadə, Nizami Rayon İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Taleh Əliyev və başqaları iştirak edirdi.

Tədbirin keçirildiyi zalda əyləşən şəhid valideynlərinin, qardaş-bacılarının, yaxınlarının üzündəki həyacanı asanlıqla sezmək olurdu. Kədərə bürünmüş baxışlarından oxuduqlarımız, yaralı ürəklərindən dinlədiyimiz kəlmələr həm içimizi yandırırdı, həm də bu mətin və əzəmətli insanların Vətənə qurban verdiyi övladları ilə fəxr duyğusu yaşayırdıq.

Təqdimat mərasimini Respublika Xatirə Kitabı Redaksiyasının əməkdaşı şair-publisist Hikmət Məlikzadə açdı. Bildirdi ki, bizi bu məkana şəhidlərin əziz ruhu toplayıb. Respublika Xatirə Kitabının yaradıcısı ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi, ardınca Azərbaycanın dövlət himni səsləndirildi.

H. Məlikzadə bildirdi ki, Xatirə Kitabı Redaksiyası 30 ildir Vətən iş görür.

Mədəniyyət Nazirliyinin şöbə müdiri Vasif Qurbanzadə çıxış edərək bildirdi: "İlk olaraq sizin övladlarınızdan danışmaq istəyirəm. Çünki Vətəni yazan sizin övladlarınızdır. İstənilən mövzuda əsərlər yazmaq olar, amma ən gözəl əsər sizin övladlarınızdır. Biz hamımız Vətənin övladıyıq, amma Vətən şəhid analarının övladıdır. Bəlkə də sizin övladlarınızın biri müharibə vaxtı mənim yanımda olub. 2020-ci iin 27 sentyabrından noyabrın 10-na qədər keçən dövr ərzində Ali Baş Komandanın rəhbərliyi ilə sizin övladlarınız tarixin ən böyük hadisəsinə imza atdı..."

V.Qurbanzadə qeyd etdi ki, ola bilsin, bu gün kimsə bu kitabların mahiyyətini anlamır, amma sabah tarix bu kitablardan oxunacaq. 30 il əvvəl yaradılan Respublika Xatirə Kitabı Redaksiyasının böyük və məsuliyyətli bir missiyanı daşıdığını vurğulayan V.Qurbanzadə bildirdi ki, bu kitablar şəhidlərin əziz xatirəsini yaşadır.

Mədəniyyət Nazirliyi Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova çıxışında bildirdi: "Məlumat üçün demək istəyirəm ki, müasir Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və onun xeyir-duası ilə fəaliyyətə başlamış Respublika Xatirə Kitabı Redaksiyası müharibə ağrılarını özündə geniş əks etdirən ensiklopedik tarixi salnamə və həyatımız üçün mühüm hadisədir.

Respublika Xatirə Kitabında əsasən, İkinci Dünya müharibəsində, Əfqanıstan döyüşlərində, 20 Yanvar faciəsində, Xocalı soyqırımında, Qarabağ müharibəsi zamanı torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli Qəhrəmanlarımız haqqında əhatəli materiallar cildlərə salınır, bugünkü və gələcək nəsillər üçün tarixi hadisə kimi xarakterizə edilir.

Respublika Xatirə Kitabının indiyədək iyirmiyə yaxın cildi çap olunub. Əbəs yerə bu kitabı yaddaşımızın abidəsi adlandırmırıq. Çünki bu kitabda tarixin səs-sədası, milli kimliyimiz örnək nüanslar kimi səciyyələnir və burada "Heç kim unudulmur, heç nə yaddan çıxmır!" prinsipi əsas götürülür.

Redaksiyamız 1941-45-ci illər Böyük Vətən müharibəsində həlak olan və itkin düşən Azərbaycan övladları haqqında məlumatların axtarışını və toplanmasını mütəşəkkil qaydada təşkil edib və bu münasibətlə on altı cilddə A-dan Z-yə kitab nəşr etdirib. Çoxcildliyin əlavələrdən ibarət on yeddinci cildi çapdadır".

N.Məmmədova vurğuladı ki, Redaksiyanın çap etdirdiyi "Qələbə-75 və "Qələbə-80: Azərbaycan xalqının mübarizə əzmi" xüsusi buraxılışları da bu qəbildəndir. "Redaksiya bu silsilə üzrə eləcə də "Tarixin qan yaddaşı", "223-cü Qırmızı Bayraqlı Belqrad Diviziyası", "Gözlə məni, ana", "Vətənin şöhrətini ucaldanlar" və s. kitablar dərc etdirib.

Redaksiyanın Azərbaycanın Milli Qəhrəmanları haqqında dərc etdirdiyi kitab da bu işin davamı kimi təzahür edir.

2017-ci ildə Respublika Xatirə Kitabı Redaksiyası Dövlət Təhlükəsizlik Xidməti nəzdində fəaliyyət göstərən Əsir, itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupu ilə birlikdə daha məsuliyyətli bir araşdırmaya başlayıb. Aparılan iş birliyinin məqsədi Azərbaycanın ərazi bütövlüyünə təcavüz edən Ermənistanın Azərbaycanın əzəli və əbədi torpağı olan Dağlıq Qarabağ və ətraf rayonlara hücumu, torpaqlarımızın işğalı zamanı əsir və girov götürülmüş, həmçinin naməlum şəraitdə itkin düşmüş hərbçi və mülki şəxslərin sonrakı talelərinin araşdırılması işi əsas prioritet kimi qəbul olunub. Redaksiya bununla bağlı iki dildə (Azərbaycan və ingilis dilində) 4 cilddə kitab nəşr etdirib, orada itkin düşmüş və girov götürüldüyü ehtimal olunan vətəndaşlarımızın acı taleyi əks olunub.

Respublika Xatirə Kitabı Redaksiyası ümummilli liderin 100 illiyi ilə əlaqədar "2023-cü il - Heydər Əliyev İli"ndə "Heydər Əliyev Xatirə kitabının yaradıcısıdır" adlı kitab nəşr etdirib. Bu kitab Tanrının xalqımıza bəxş etdiyi dahi insan, varlığı siyasətdən yoğrulmuş qüdrətli dövlət başçısı, xalqımızın xilaskarı, dövlətimizin rəmzi, dövlətçiliyimizin, Konstitusiyamızın və qanunlarımızın qarantı Heydər Əliyevə tərəfimizdən bir vəfa borcudur. 7 oktyabr 2025-ci il tarixində Bakı Ekspo Mərkəzində həmin kitabın təqdimatı keçirilib.

Respublika Xatirə Kitabı Redaksiyası həmçinin, "Bakı Xəbər" qəzeti ilə birgə layihəsi əsasında "Şəhidlər ölməz, Vətən bölünməz!" silsiləsindən Qarabağ müharibəsində həlak olanların adlarının və xatirələrinin əbədiləşdirilməsi məqsədilə 10 kitab nəşr etdirib, həmin kitabların təqdimatını keçirib. Layihə üzrə işlər davam etdirilir.

Redaksiya, eyni zamanda, "Vətən daşı... və ya 44 günün dastanı" adlı layihə əsasında 8 sənədli film çəkib. Bu filmlər geniş ictimaiyyətə təqdim olunub.

Respublika Xatirə Kitabı Redaksiyası Vətən uğrunda qəhrəmanlıqla həlak olan, xalqımıza tarixi zəfər bəxş edən cəsur oğulların adlarının və xatirələrinin əbədiləşdirilməsi məqsədilə "44 gün - Tarixi zəfər" adlı 4 cilddə kitab nəşr etdirib, onların təqdimatlarını keçirib. Bu kitablar Azərbaycanın hər yerində şəhid ailələrinə çatdırılıb.

Hazırda sizinlə bu möhtəşəm zalda "44 gün - Tarixi zəfər" adlı çoxcildliyin IV cildinin təqdimatına toplaşmışıq. Bu cilddə Bakının Nəsimi, Nizami, Xətai, Suraxanı, Sabunçu, Binəqədi, Xəzər, Pirallahı, Qaradağ, Səbail və Nərimanov rayonlarından olan cəsur Vətən oğulları haqqında əlifba sırası ilə ensiklopedik məlumatlar yer alıb.

Respublika Xatirə Kitabı yaddaşımızın tarix salnaməsidir və redaksiya hazırda dövlət başçısı İlham Əliyevin diqqət və qayğısı altında bugünkü və gələcək strateji işlərini də eyni məhəbbət və həvəslə davam etdirmək üçün əzmlə çalışır.

*(Ardı səh. 13-də)*

(Əvvəli səh. 12-də)

Xalqımıza böyük Zəfər bəxş edən oğullarımızın adlarının əbədiləşdirilməsi Respublika Xatirə Kitabı Redaksiyasının ümdə işidir və redaksiya bu prosesi daim öz üzərində bir məsuliyyət kimi hiss etmiş, bu istiqamətdə araşdırma işləri aparmış və bu ənənəni hazırda da davam etdirməkdədir.

Xalqımızın 30 illik həsrətinə 44 gündə son qoyan cəsur, qəhrəman və qeyrətli Azərbaycan övladları - öz canlarını Vətən üçün fəda edən, şərəf tariximizi yazan şəhid oğullar daim yaddaşımızda yaşayacaq, xatirələri həmişə bizə əziz olacaq. İllər, qərinələr ötəcək, onlar heç vaxt unudulmayacaqlar.

Sağlamlıqlarını itirmiş qazilərimiz də bizim fədailərimizidir, onların hünəri ilə bu gün başımızın üstündə nikbin bir səma pərvaz edir.

Bundan sonra qarşımızda duran əsas vəzifələrdən biri Respublika Xatirə Kitabı Redaksiyasının gələcəkdə görüləcək işlərə daha məsuliyyətlə yanaşmasıdır. Redaksiya Birinci Qarabağ müharibəsində həlak olmuş şəxslərin adlarının əbədiləşdirilməsi istiqamətində yeni layihə hazırlayıb, bu işi gələcək nəsillərə ötürmək, kitabın gələcək uğurunu, gələcək taleyini müəyyənləşdirmək istiqamətində atılacaq addımlara prioritet yanaşır.



Son olaraq bizə yaratdığı şəraitə görə Azərbaycan Milli Kitabxanasının rəhbərliyinə, əziyyəti keçən hər kəsə təşəkkürümü bildirirəm"-deyə N.Məmmədova qeyd etdi.

Tədbirdə şəhid Ceyhun Şalıyevin xalası Rəna Məmmədova, şəhid Ramil Yusifzadənin anası Reyhan Yusifzadə, şəhid İslam Əlizadənin bacısı Dürdanə İbrahimova, şəhid Rasim Məmmədovun anası Xuraman Məmmədova, şəhid Aqil Əkbərovun atası Fayəddin Əkbərov və başqaları çıxış etdilər və bu kitabı ərsəyə gətirən Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədovaya və əməkdaşlarına təşəkkür etdilər.

Şəhid valideynləri dedilər ki, tarix var qələmlə yazılır, tarix var yaddaşa qanla yazılır, onların övladlarının qanı ilə yazılan tarix unudulmayacaq. Şəhid anası Xuraman Məmmədova "bu gün biz sağıq övladlarımızın xatirəsini yaşadırıq, amma sabah biz olmayacağıq, amma onların adları, xatirələri Xatirə Kitabının səhifələrində əbədi yaşayacaq. Bizim övladlarımızın qəhrəmanlığını gələcək nəsillər bu kitablardan oxuyacaq" dedi. Şəhid anasının dilə gətirdiyi bu duyğulu sözlər zalda əyləşən bütün insanları kövrəltdi. Bəli, onların övladları Respublika Xatirə Kitabı Redaksiyasının ərsəyə gətirdiyi kitablarda yaşayacaq. Yaşatmaq bu redaksiyanın əzəli və əbədi missiyasıdır.

Tədbirdə Nəzakət Məmmədovanın ideya müəllifi olduğu və Vüsal Nurunun ərsəyə gətirdiyi "Vətən daşı... və ya 44 günün dastanı" adlı layihə əsasında çəkilən və şəhid Ömər Rəhimliyə həsr olunan film də nümayiş olundu.

Sonda "44 gün - Tarixi zəfər" kitabının IV cildi rayonlar üzrə şəhid ailələrinə təqdim olundu və xatirə şəkli çəkildi...

***İradə SARIYEVA***